

*Doğma, canım–varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır.*


# ŞƏRQ QAPISI

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 12 (19.926)

21 yanvar 2010-cu il, cümə axşamı

*Gündəlik ictimai-siyasi qəzet*

E-mail:serqqapisi@nakhchivan.az

Qiyməti 20 qəpik




### *Rəsmi xronika*

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir. Yanvar faciəsinin iyirminci ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldilər. Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsi önünə əklil qoydu. Həmin gün Prezident İlham Əliyev Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində, Həsənbəy Zərdabi və Müzəffər Həsənov küçələrinin kəsişməsində Qanlı Yanvar şəhidlərinin xatirəsinə ucaldılmış memorial abidə kompleksinin açılışında iştirak etmişdir. Dövlətimizin başçısı abidənin üzərindən örtüyü götürdü. Prezident İlham Əliyev açılış mərasiminə toplaşmış Yasamal rayonu ictimaiyyətinin nümayəndələri və 20 Yanvar şəhidlərinin ailə üzvləri ilə görüşüb söhbət etdi.

## Tariximizin faciə və qəhrəmanlıq səhifəsi

*20 Yanvar faciəsinin iyirminci ildönümü*

Xalqımızın yaddaşına "Qanlı Yanvar", qəhrəmanlıq və iftixar günü kimi yazılan 1990-cı ilin 20 Yanvarından bizi iyirmi illik bir zaman məsafəsi ayırır. 20 Yanvarda imperiya tanklarının polad tırtılları altında qalan günahsız insanların minbir arzu dolu həyatlarına nöqtə qoyuldu. Aparılmış son dəqiqləşdirmələrə görə 20 Yanvar faciəsində 147 nəfər Azərbaycan vətəndaşı şəhid olmuş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz olaraq həbs olunmuşdur.

20 Yanvar faciəsinə ilk dəfə öz etirazını bildirən ümummilli liderimiz Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək keçirdiyi mətbuat konfransında xalqımıza qarşı həyata keçirilmiş bu cinayəti pisləmiş,

*Ardı 2-ci səhifədə*

## Milli şərəf və ləyaqət tarixi

Naxçıvan Dövlət Universitetində 20 Yanvar şəhidlər gününə həsr olunmuş mərasim keçirildi. Tədbirdə ilk öncə 20 Yanvar şəhidlərinin ruhu bir dəqiqəlik sükutla dərin ehtiramla yad edildi. Naxçıvan Dövlət Universitetinin rektoru, akademik İsa Həbibbəyli giriş sözü ilə çıxış edərək 20 Yanvarı Azərbaycan xalqının milli azadlıq hərəkatı və müstəqillik tarixinə daxil olmuş şanlı səhifə kimi qiymətləndirdi. Millət vəkili keçmiş SSRİ rəhbərliyinin, dövlət başçılarımızın xəyanətkarlığı nəticəsində böyük əksəriyyəti ermənilərdən ibarət olan silahlı ordu vasitəsilə Bakıda növbəti soyqırım aktı törətməsindən, eyni zamanda Naxçıvanın erməni işğalına məruz qalmasından, Naxçıvanda ilk cəsarətli siyasi addımların atılmasından danışdı. Rektor bu qanlı qırğına ümummilli lider Heydər Əliyevin ilk dəfə 1994-cü ildə siyasi qiymət verdiyini söylədi, bu günün tarixdə təkcə ümumxalq hüzn günü kimi deyil, milli şərəf və ləyaqət günü kimi əbədi yaşayacağını vurğuladı.

Magistratura üzrə dekan, Beynəlxalq münasibətlər kafedrasının baş müəllimi, tarix elmləri namizədi Elbrus İsayev "20 Yanvar xalqımızın qan yaddaşıdır" mövzusunda məruzə edərək o zamankı siyasi-tarixi proseslərə şərh verdi. Məruzəçi Ermənistanın təcavüzkar əməllərindən, sovet imperiyasının ikiüzlü siyasətindən hiddətlənərək azadlıq mücadiləsinə qalxan əliyalın xalqa qarşı törədilən qətliam, onun əsl səbəbkarları barədə faktlara toxundu.

Universitet YAP Gənclər Birliyinin sədri, İqtisad fakültəsinin III kurs tələbəsi Elçin Əliyev "20 Yanvar: Tarixi yaddaş və müasir dövr" adlı məruzəsində tarixin ibrət dərslərindən, xalqın siyasi yekdillik və milli birlik sayəsində qazandığı tarixi nailiyyətlərdən, dövlət başçısının qətiyyətli siyasəti nəticəsində Azərbaycanın dünya dövlətləri ilə bir sırada siyasi-iqtisadi inkişafından, milli müstəqilliyin toxunulmazlığından bəhs etdi.

**Mehriban SULTAN**

## Xalqımızın qəhrəmanlıq salnaməsi

***Vətən, torpaq uğrunda canından keçənlər, özlərini fəda edənlər ölmürlər. Aylar, illər keçdikcə onların göstərdikləri igidliklər dillərdə gəzir, nəsillərdən-nəsillərə ötürülür. Beləliklə, xalq igid, qəhrəman övladlarına öz qəlbində əbədi heykəl ucaldır. 1990-cı ilin 19-dan 20-sinə keçən gecə Vətənimizin paytaxtı Bakı şəhərinə daxil olan silahlı dəstələrin qarşısına öz ürəkləri ilə çıxan və mərdliklə şəhid olan övladlarımız da öz qəhrəmanlıqları ilə Azərbaycan xalqının yaddaşına əbədi həkk oldular. Məhz buna görədir ki, xalqımız hər il bu tarixi hüznlə yanaşı, iftixar hissi ilə qeyd edir.***

Naxçıvan Qarnizonunun təşkilatçılığı ilə Naxçıvan şəhərindəki "Gənclik" mərkəzində təşkil olunan anım mərasimi də şəhidlərimizin ölməz xatirəsinə həsr olunmuşdu. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra xalqımızın azadlığı və müstəqilliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Sonra Naxçıvan Qarnizonunun zabiti, polkovnik-leytenant Mirqiyas Rüstəmov çıxış edərək 1990-cı ilin yanvarında sovet imperiyasının qoşun birləşmələrinin Azərbaycanda azadlıq uğrunda mübarizəyə qalxmış dinc əhaliyə qarşı törətdiyi cinayətlər barədə ətraflı məlumat vermişdir. Qeyd edilmişdir ki, Qanlı Yanvar tariximizin qəhrəmanlıq səhifəsidir. O gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, müstəqillik və azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya nümayiş etdirdi.

M.Rüstəmov ümummilli lider Heydər Əliyevin o müdhiş gecənin sabahı günü Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək mətbuat konfransı keçirməsini, faciəni törədənlərin adlarını açıqlamasını, onların cəzalandırılmasını tələb etməsini xüsusilə vurğulamış, məhz ulu öndərin ölkəmizdə rəhbərliyə qayıdışından sonra bu istiqamətdə görülən işlərdən, bu hadisəyə siyasi qiymət verilməsindən danışmış, şəhidlərin adlarının əbədiləşdirilməsi, onların ailə üzvlərinə yardım göstərilməsi barədə sərəncamların bu insanların xatirəsinə böyük ehtiram olduğunu qeyd etmişdir.

Sonra mövzu ətrafında çıxışlar olmuşdur.

Tədbirin sonunda "Azadlığa gedən yol" adlı sənədli film nümayiş olunmuşdur.

**Şəbnəm HƏSƏNƏLİYEVA**

## Görülən işlər bu il də uğurla davam etdiriləcək

***Kəngərli Rayon İcra Hakimiyyətində 2009-cu ilin yekunları ilə bağlı müşavirə keçirilmişdir. Rayon icra hakimiyyətinin başçısı Ramiz Cəfərov məruzə ilə çıxış etmişdir.***

Qeyd olunmuşdur ki, rayonda dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi, işçilərə nümunəvi şəraitin yaradılması da diqqət mərkəzində saxlanılmışdır. 2009-cu ildə Kəngərli Rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbəsi, Milli Təhlükəsizlik Nazirliyinin Kəngərli rayon şöbəsi, Şahtaxtı Gömrük İdarəsi, Yeni Azərbaycan Partiyası Kəngərli rayon təşkilatı və rayon ərazisində yerləşən Qarışıq Tipli Cəzaçəkmə Müəssisəsi üçün tikilmiş inzibati binalar ötən ilin quruculuq ünvanları arasında ən yaddaqalanlardır.

Rayon əhalisinin şəxsi vəsaiti hesabına 13350 kvadratmetrlik 228 yaşayış mənzili tikilmişdir. Rayonun qəsəbə və kəndlərində tikinti-quruculuq işləri bu gün də sürətlə davam etdirilir. Rayon mərkəzində ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan parkın, Xıncab kəndində nümunəvi kənd mərkəzinin, Təzəkənddə məişət evinin tikintisi aparılır.

İl ərzində rayonun Qarabağlar kəndində balıq konserv zavodunun, Yurdçu kəndində tərəvəz yetişdirmə istixanasının, Xıncab kəndi yaxınlığında sement zavodunun və digər istehsal müəssisələrinin tikintisi aparılmışdır.

Əvvəlki illərdə olduğu kimi, ötən ildə də aqrar sahəyə xüsusi diqqət yetirilmişdir. Rayon ərazisində kənd təsərrüfatı istehsalçıları tərəfindən 2009-cu ilin məhsulu üçün əkilmiş 3798 hektar ərazidə taxıl biçini aparılmış, 10 min 33 ton məhsul əldə olunmuşdur. Orta məhsuldarlıq 27 sentner olmuşdur. Bundan əlavə, istehsalçılar tərəfindən 196 hektar kartof sahəsindən 2599 ton, 276 hektar tərəvəz sahəsindən 3132 ton, 168 hektar bostan sahəsindən 2038 ton məhsul götürülmüşdür. Rayon ərazisində olan meyvə bağlarından 4395 ton meyvə, 45 hektar üzüm bağlarından isə 4510 ton üzüm toplanmışdır.

110 hektar ərazidə şəkər çuğunduru əkini həyata keçirilmiş, 803 ton məhsul tədarük olunmuşdur. Şəkər çuğunduru əkinçilərinə təhvil verilən məhsulun müqabilində 63 ton şəkər tozu verilmişdir.

Rayonda heyvandarlığın inkişafı ilə bağlı həyata keçirilən tədbirlər iribuynuzlu və xırdabuynuzlu heyvanların sayının, ət və süd məhsullarının artımına səbəb olmuşdur.

Ötən il rayonun bütün təsərrüfatlarında iribuynuzlu malqaranın sayı 7552 baş, xırdabuynuzluların sayı isə 85389 baş olmuşdur ki, bu da əvvəlki ilin göstəricilərindən artıqdır.

**Səbuhi HÜSEYNOV**





Əvvəli 1-ci səhifədə

eliyalın xalqın kütləvi şəkildə qətlə yetirilməsini hüquqa, demokratiyaya və insanlığa zidd aksiya kimi qiymətləndirmişdir.

Bu faciəyə ilk dəfə ulu öndərimiz tərəfindən siyasi qiymət verilmişdir. Ümummilli liderimiz hələ 1990-cı ildə Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 17 noyabr tarixli birinci sessiyasının müzakirəsinə çıxarılan məsələlərdən biri də bu faciəyə siyasi qiymət verilməsi barədə idi. Ulu öndərimizin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərar qəbul olunmuşdur. Beş bənddən ibarət olan qərarın ilk iki bəndində deyilirdi: "1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin. Dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahlarla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilsin".

20 Yanvar hadisələrinə dövlət səviyyəsində hüquqi-siyasi qiymət verilməsi də ümummilli liderimizin sayəsində öz həllini tapmışdır. 1994-cü ilin fevralında Milli Məclisin xüsusi sessiyasında Azərbaycana qoşun yeridilməsinin xalqımıza qarşı hərbi təcavüz və cinayət kimi qiymətləndirilməsi, təqsirkarların məsuliyyət dərəcəsinin müəyyənləşdirilməsi də məhz ulu öndərin təşəbbüsü ilə baş vermişdir. Eyni zamanda, 20 Yanvar hadisələri həm ümumxalq faciəsi, həm də milli azadlıq hərəkatının zirvəsi kimi xarakterizə edilmişdir.

1990-cı il yanvarın 20-də sovet qoşunlarının Bakıda törətdikləri qanlı cinayətlər Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasının sərhəd kəndlərində erməni silahlı dəstələrinin fəallaşması ilə müşayiət olunurdu. Onların Sə-



dərəyə və digər sərhəd kəndlərinə hücumu Qanlı Yanvarın ilk səhifəsini yazmışdı. Ancaq naxçıvanlılar düşmənin önündə mərdliklə dayandılar, şəhidlər verərək Azərbaycanın qədim torpağını qoruyub saxladılar.

Bu gün azadlıq mübarizəsinin xatirəsini müstəqil dövlətimizin hazırkı güclü inkişaf dövründə böyük qürur və vətənpərvərlik hissi ilə yad edirik. 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da geniş tədbirlər planı hazırlanmış və həyata keçirilmişdir.

Yanvarın 20-də Naxçıvan şəhərinin Şəhidlər Xiyabanı ümumxalq ziyarətgahına çevrilmişdi. Səhər saat 11:00-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər Xiyabanına gəlmişdir.

Ali Məclisin Sədri müqəddəs ziyarətgahda ucaldılan Ana abidəsinin önünə gül qoymuş, ehtiramını bildirmişdir.

Ali Məclisin Sədri 1918-1920-ci illərdə Naxçıvan əhalisinə erməni daşnakları ilə mübarizədə köməyə gələn qardaş Türk ordusunun bu torpaqlarda şəhid olan əsgərlərinin xatirəsinə ucaldılmış abidəsi önünə də tər güllər qoymuş, şəhidlərin xatirəsini ehtiramla yad etmişdir.

Naxçıvan Qarnizonunun birləşmiş hərbi orkestri Azərbaycanın Dövlət himnini səsləndirmişdir.

Ali Məclisin Sədri vətənimizin azadlığı, ərazi bütövlüyü, dövlətçiliyimizin qorunması uğrunda mübarizədə şəhidlik zirvəsinə ucalanların məzarları üstünə tər güllər düzmüşdür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, nazirlik, komitə, xidmət, fond, şirkət, mərkəzi təşkilatların, bankların, səhmdar cəmiyyətlərin, məhkəmə, hüquq-mühafizə orqanlarının, hərbi hissələrin, elm və təhsil müəssisələrinin, Naxçıvan Şəhər İcra Hakimiyyəti və onun yerli təşkilatlarının, ictimai təşkilatlar və yaradıcılıq birliklərinin, kütləvi informasiya vasitələrinin, mədəniyyət, səhiyyə və sağlamlıq müəssisələrinin kollektivləri, Naxçıvan şəhərinin sakinləri şəhid məzarları önündən keçərək onların əziz xatirəsini ehtiramla yad etmişlər.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu və konsulluğun işçiləri, Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı Missiyasının və Naxçıvan Ofisinin rəhbərləri də şəhidlərin xatirəsinə öz ehtiramlarını bildirmişlər.

Saat 12:00-da ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan şəhər Şəhidlər Xiyabanında da şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Şəhidlər Xiyabanına insan axını davam etdikcə ulu öndərimizin bu sözləri bir daha yada düşürdü: "Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi. 1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifələr yazdılar. Bu gün Azərbaycan xalqı özünün milli mənliyini qorumaq üçün canlarından keçən övladları ilə fəxr edir".

Xalqımız 20 Yanvar faciəsi qurbanlarının milli azadlıq mübarizəsində nümayiş etdirdiyi birliyi heç vaxt unutmayacaq, dövlətçiliyimizin möhkəmlənməsi naminə öz milli həmrəyliyini daha da yüksəldəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Bir gecənin ağrısı

*(Poema)*

*Şair Oljas Süleymenovun dilindən*

Qəfil bir zəng gəldi gecəyarısı,
Oyandım yuxudan təlaş içində.
Tez baxdım saata, saat 3 idi
Çox narahat oldum bu zəngə mən də.

Xeyir xəbər olmaz bu qəfil zəngdə,
Kimsə dərd əlindən qovrulur dedim.
Yoxsa ki, gecənin bu vədəsində
Narahat etməzdi heç kimi heç kim.

Qaldırdım dəstəyi bir an içində,
Duydum qəhər boğur danışan kəsi.
O təlaş içində söylədi: Oljas,
Üzür qan gölündə Odlar ölkəsi.

Anlaya bilmədim nə olub düzü,
Bildim ki, Bəxtiyar Vahabzadədir.
Söylədi, ay Oljas, tez Bakıya gəl,
Gəl, gör doğma Bakım bir nə gündədir.

Bu qədər haqsızlıq görməyib bəşər.
Namərd qanımızı su kimi içir.
Sovetin tankları Azərbaycanda
Qocanın, cavanın üstündən keçir.

Xahiş eləyirəm mümkün eyləsən,
Gəl, özün şahid ol bu müsibətə.
Gəl, öz gözlərinlə gör bu zalımlar
Necə divan tutub bizim millətə.

–Gəlirəm söyləyib, - asdım dəstəyi
Qızdırma içində yanırdım ancaq.
Vardı istiliyim, bərk xəstə idim
Dedim getməliyəm olmaz dayanmaq.

"Domodedovoya" gəldim tələsik
Uçdum Moskvadan Bakıya birbaş.
İyirmi bir yanvar, 90-cı il,
Qəlbimdə ateş var, gözümdə təlaş.

Yox idi sərnişin təyyarələri,
Hərbi təyyarədə uçmalı oldum.
Həmişə Bakıya gündüz gələrdim.
İndi gecəyarı uçmalı oldum.

Düşdüm təyyarədən hərbiçilərlə,
Təyyarə vağzalı yarı qaranlıq.
Özüm də bilmədim nə olub mənə
Məni qəhər boğdu burda bir anlıq.

Bir suyu sovrulmuş dəyirman kimi,
Sükuta dalıbdı Bakı vağzalı,
Nə gəlib–gedən var, nə də ki, səs–küy,
Yetimə bənzəyir Bakımın halı.

Şəhərə getməyə bir taksisi yox,
Nə də bir avtobus gözə dəyirdi.
Elə bil lal olan Bakı vağzalı
Bu lal harayıyla nəsə deyirdi.

Deputat mandatım köməyə çatdı,
Bir hərbi maşına aldılar məni.
Birtəhər şəhərə gəlib yetişdim,
Birinci metroda saldılar məni.

Metroya çatınca mən yol uzunu,
Seyr etdim Bakıda evləri bir - bir.
Yox, duydum, gördüm ki, doğrudan Bakı,
Mən görən əzəlki Bakı deyildir.

Bir işıq görünmür pəncərələrdən
İşığın qabağın divlər kəsibdir.
Elə bil Bakıda qasırğa qopub,
Ya da ki, bir güclü tufan əsibdir.

İşıqlı Bakımız işıqsız qalıb,
Yollar qərənfilə qərq olub tamam.
Yollarda, metroda qara lentalar,
Hər yer qan ağlayır haraya baxsam.

Səs–küylü, gülüşlü Bakı metrosu,
Bomboşdu, gedəni, gələni yoxdu.
Gözüm qan ağlayır, dərdim dağ olub,
Gözümün yaşını silənim yoxdu.

Bir nəfər–deyəsən bələdçi idi,
Yolunu soruşdum mehmanxananın.
O da asta-asta dindi, danışdı,
Gedəcəyim yerin dedi ünvanın.

Metro vaqonları yenə boş idi,
Dəli eləyirdi sükut insanı.
Elə öz - özümə fikirləşirdim,
Hanı insanları Bakımın, hanı?

Metro vaqonları qara lentalı,
Qəmli, kədərliydi stansiyalar.
Hər yerdə elə bil qəm göyərmişdi,
Qara geyinmişdi yol, vaqon, divar.

Dəhşət içindəydim gördüklərimə
İnana bilmirdi gözlərim daha.
Sanırdım çox yüksək hərarətim var.
Hər şey gözlərimə görünür qara.

Mən dəhşət içində çıxdım metrodan,
Allah nə gündədir Bakı, nə gündə?
Qapı-pəncərələr güllə yerlərin
Nişanə saxlayıb odur köksündə.

Vurulmuş əsgərtək səkilər üstə
Əzilmiş, dağılmış maşınlara bax.
Hara qan tökülüb onun üstünə
Qərənfil səpiblər bax, qucaq-qucaq,

Gözüm qan ağlayır, gördüklərimə
İnana bilmirəm bu ki dəhşətdir.
Yol boyu elə hey pıçıldayıram
Bu ki başdan - başa bir cinayətdir.

Gəlib yetişirəm mehmanxanaya,
Burda da elə bil sükut qonaqdır.
Bir işıq gəlməyir mərtəbələrdən
Deyəsən qapıçı təkcə oyaqdır.

Döydüm qapısını mehmanxananın,
Gəlişi qocanın necə ağırdı.
İlahi, bu qoca qapıçının da
Üzündən - gözündən kədər yağırdı.

O açdı qapını bir an içində
- Oljas Süleymenov, - deyib qışqırdı.
Məni qucaqladı gözlənilmədən
Birdən boğdu onu qəhər, hıçqırtı.

Qəfil tanışlıqdan karıxdım mən də
Bilmədim nə deyim doğrusu ona.
Soruşa bilmədim nə olub, nədən
Bakı bürünübdür bu qara dona.

Adım çağrılanda bir an içində,
Yığışdı başıma digər işçilər.
Kimsə pıçıldadı qəhər içində
Dostun dar günündə yenə dost gələr.

Məni doğmalartək əzizlədilər,
Mənə yer verdilər bir an içində.
Orada yeganə qonaq mən oldum,
Qalxdım otağıma güman içində.

Binanın onuncu mərtəbəsindən
Boylanıb şəhərə baxırdım gecə.
Gördüm ki, "Volqa" lar, "Juqili" lər də
Əzilib yol boyu düzülüb necə,

Gördüm ki, heç kəsə rəhm olunmayıb,
Güllələnib olub ağac, ev, şəhər,
Yollar başdan-başa qan izləridir,
Düzülüb yol boyu, minlərlə güllər,

Bir qara bayraqlar dəyir gözümə,
Bir də qan ağlayan qanlı qərənfil.
Mənə elə gəldi Bakı şəhəri
Güllərlə bəzənib bu gün elə bil.

Külək uğuldayır, vahimə yayır,
Soyuq iliklərə işləyir yenə.
Şüşə çiliklənib tökülür birdən
Qaldığım otağın döşəməsinə.

Başımın üstündə bir qəfil güllə,
Sən demə şüşəni dəlib keçibdir.
O qara yanvarı yada saldıqca,
Hələ də bədənim ürpəşir indi.

Sonra anladım ki, əsgərlər məni
İstəyib neçənci şəhid eyləsin.
Tanrı qorudu ki, o zaman məni
Qanlı cinayətə şahid eyləsin.

Baxdım divarlara bu nədir Allah,
Dəlik - deşik olub divarlar bütün.
Deməli, Bakının bütün evləri
Güllələnmiş imiş yenə həmin gün.

Mən nahaq tökülən qanlar görmüşəm,
Bir zaman Peruda, Anqolada da.
Bu günsə Bakıda gecəyarısı
Düşdü Əfqanıstan, Mozambik yada.

Mən o şəhərlərdə olmuşam bir vaxt,
Görmüşəm pulemyot, top atəşləri.
Ancaq heç bir yerdə Bakıdakı tək,
Düşmən görməmişdi vəhşi işləri.

Bir vaxt Alma - Ata, Tbilisi də,
Beləcə üzləşdi ölümlə, qanla.
Ancaq imperiya son haqq - hesabın
Çəkmək istəmişdi Azərbaycanla.

Nə qədər nifrəti, kini vardısa,
Tökürdü yağıştək Bakının üstə.
Bakı ağrılara sinə gərirdi,
Qurbanlar versə də dəstəbədəstə.

Gecə günəş gözlü səhər gətirdi,
Günəş də elə bil o günəş deyil.
Yerdəki bu nahaq qızıl qanlara
Günəş də xəcalət çəkdi elə bil.

Küçələr elə bil insan seliydi,
Qəribə izdiham vardı Bakıda.
22 yanvar, 90-cı il
Küçələr, səkilər dardı Bakıda.

Millət bir nəfərtək çıxıb küçəyə
Zalıma sözünü deyirdi o gün.
Qaniçən cəlladlar çəkilib qına
Daldada özünü öyürdü o gün.

Adını yazırdı tarixə Bakı,
Matəmin toy kimi qarşılayırdı.
Həmin gün Şəhidlər Xiyabanını
Bakı elə bil ki, Məkkə sayırdı.

Şəhidlər bir durna qatarı kimi
Keçirdi Bakının küçələrindən.
Qara bayraqları sancıb köksünə
Şəhid oğullara baxırdı Vətən.

Küçələr, döngələr, evlər, səkilər,
Yenə başdan - başa qərənfil idi.
Səpib küçələrə qərənfil kimi
Xalq əzizləyirdi ürəkdə dərdi.

Yanıb qovrulurdum hey için - için
Mən də türk balası, qazax oğluyam,
Mən ki üreyimlə, mən ki qanımla,
Soyuma, kökümə - türkə bağlıyam.

Dedim qışdan sonra bahar gələcək,
Əyilməz vüqarlı Azərbaycanım!
Mən onu çiçəkli - güllü görmüşəm
Həmişə baharlı Azərbaycanım!

Yenə yolum düşür Bakıya tez - tez
Yadımdan çıxmayır ancaq o günlər.
Tarixin ən qanlı səhifəsidir,
Yadından çıxarmı bir bax o günlər?

Dünənki ağrılar ürəkdə yara,
Bu gündən sabaha boylanmalıyıq.
Azadlıq eşqinə, Vətən naminə
Yenə bir sırada dayanmalıyıq.

Çıxdı hər sınaqdan, çıxdı üzüağ,
Bu gün Azərbaycan nurlu çıraqdır.
Şəhidlər eşqinə, Vətən eşqinə
Daha gur alışıb, gur yanacaqdır.

Qisas qiyamətə qalmaz deyiblər,
Yağıdan qisaslar alınacaqdır.
O zaman Şəhidlər Xiyabanında
Üzeyir "Cəngi"si çalınacaqdır.

**Asim YADİGAR**

***21 - 22 yanvar 2008***

### Xəbər

## Şəhidlər ölməz, vətən əyilməz

*Rəsm müsabiqəsi 20 Yanvar faciəsinə həsr olunmuşdur*

***Naxçıvan MR Rəssamlar Birliyinin sərgi salonunda 20 Yanvar faciəsinin 20-ci ildönümü ilə əlaqədar olaraq ümumtəhsil məktəblərinin şagirdləri və ali, orta ixtisas məktəblərinin tələbələri arasında rəsm müsabiqəsi keçirilmişdir.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Naxçıvan MR Rəssamlar Birliyinin təşkil etdiyi müsabiqədə 50-yə yaxın rəsm əsəri nümayiş etdirilirdi. Müsabiqədə birinci yerə Şahbuz Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin nümayəndəsi Jalə Quliyeva layiq görülmüşdür. Ordubad şəhər 1 nömrəli orta məktəbin şagirdi Zülfüqar Həsənli ikinci yerə, Naxçıvan şəhər 11 nömrəli orta məktəbin şagirdi Adil Əsgərov üçüncü yerə çıxmışlar. Ali və orta ixtisas məktəbləri tələbələri arasında isə Naxçıvan Dövlət Universitetinin tələbəsi Fizzə Quliyeva birinci, Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Nazlı Məmmədova ikinci, Naxçıvan Tibb Məktəbinin tələbəsi Pünhanə Ələkbərova isə üçüncü olmuşlar.

Müsabiqənin sonunda qaliblərə diplomlar təqdim edilmişdir.

**Səbuhi HÜSEYNOV**

### Hava haqqında

Sinoptiklərin məlumatına görə, muxtar respublikamızın bəzi yerlərində yağıntı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Saniyədə 5-10 metr sürətlə Qərb küləyi əsəcək.

| | | | |
|---|---|---|---|
| Naxçıvan şəhəri | Babək rayonu | Culfa rayonu | Şahbuz rayonu |
| Gecə -1...-5 | Gecə -1...-5 | Gecə 1...6 | Gecə -1...-6 |
| Gündüz 2...6 | Gündüz 2...6 | Gündüz 5...10 | Gündüz 5...10 |
| Kəngərli rayonu | Şərur rayonu | Ordubad rayonu | Sədərək rayonu |
| Gecə -1...-5 | Gecə -1...-5 | Gecə 0...5 | Gecə -1...-6 |
| Gündüz 5...10 | Gündüz 5...10 | Gündüz 4...9 | Gündüz 4...9 |

### Allah rəhmət eləsin

Naxçıvan Dövlət Filarmoniyasının direktoru Elman Əliyev
**ƏLƏKBƏR QULİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Filarmoniyasının direktoru Elman Əliyev və filarmoniyanın kollektivi İlahə Mirzəyevaya, əmisi
**ƏLİ MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Şəhər Elektrik Şəbəkəsinin direktoru İqrar Əliyev və şəbəkənin kollektivi iş yoldaşları Ağa Həsənova, əzizi
**ƏLİYARIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


ŞƏRQ QAPISI

Baş redaktor: RABİL KƏTANOV

Ünvan: AZ-7000, Naxçıvan ş. Təbriz küçəsi, 1.
Telefonlar: Məsul katib: 45-62-47
Şöbələr: 45-81-44, 45-51-18
Müxbirlər: 45-75-21
Faks: 44-52-52

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompyuter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 3700. Sifariş № 80